# BMT-nin UŞAQ HÜQUQLARI KOMİTƏSİNƏ QHT-lər VƏTƏNDAŞLAR VƏ UŞAQLAR TƏRƏFİNDƏN ALTERNATİV HESABATLARIN TƏQDİM EDİLMƏSİ ÜZRƏ BƏLƏDÇİ

Bu kitab Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı tərəfindən UNICEF, Kanada Səfirliyi (Kanada Fondu), World Vision Azerbaijan və Save the Children Azərbaycan təşkilatlarının dəstəyi ilə həyata keçirilən «BMT-nin Uşaq Hüquqları Komitəsinə Alternativ QHT Hesabatının hazırlanması və təqdim edilməsi» adlı layihə çərçivəsində hazırlanmış və çap edilmişdir.

Müəlliflik hüquqları © Uşaq Hüquqları üzrə Azərbaycan QHT Alyansı və Ümidli Gələcək Gənclər Təşkilatına məxsusdur.

Bu sənədin ingilis dilindəki orijinal versiyası UHK üzrə QHT Qrupu tərəfindən hazırlanmışdır.

Bakıda çap edilmişdir, 2005.

Bu kitabda əksini tapmış materiallar müəlliflərlə əvvəlcədən razılaşdırılmadan istifadə edilə, surəti çıxarıla və yenidən çap edilə bilər. Bu zaman mənbəyə istinad etmək vacibdir.

Üz qabığında istifadə edilmiş şəkil © UNICEF Azerbaijan/Pirozzi/2004 məxsusdur.

Müəllif-tərtibatçılar və tərcümə edənlər:
Nabil Seyidov
Dadaş Əhmədov
Faiq Ağayev
Camal Şərifov
Kəmalə Aşumova

---

Published by Azerbaijan NGO Alliance for Children's Rights within the project on "Preparation and submission of NGO Alternative Report to UN CRC" implemented in cooperation with and the support from UNICEF, Canadian Embassy (Canada Fund), World Vision Azerbaijan and Save the Children Azerbaijan.

Copyright 2005 © Azerbaijan NGO Alliance for Children's Rights and Reliable Future Youth Organization.

The English original version of this publication has been developed by NGO Group for CRC.

Printed in Baku, Azerbaijan.

This publication can be reprinted and copied without prior notice to the copyright holder. However the source must be indicated at any time.

Cover page photo © UNICEF Azerbaijan/Pirozzi/2004

Compiled, translated, written and edited by:
Nabil Seyidov
Dadash Akhmedov
Faig Agayev
Jamal Sharifov
Kamalya Ashumova

# I. TƏRƏFDAŞ DÖVLƏTİN HESABATININ NƏZƏRDƏN KEÇİRİLMƏSİ

Hesabat tamamlandıqdan sonra Tərəfdaş dövlət onu İsveçrənin Cenevrə şəhərində yerləşən İnsan Hüquqları üzrə Ali Komissiyanın ofisindəki Komitə Katibliyinə göndərməlidir. Sonra o, növbəti sessiyada Komitə tərəfindən nəzərdən keçiriləcək. Qaydaya əsasən, Komitə hesabatın qəbul olunmasından bir il müddətində onu nəzərdən keçirməyə çalışır. Hesabatların çoxluğu səbəbindən Komitənin bu cədvələ əməl etməsi demək olar ki, mümkün olmur. QHT qrupunun Birləşmiş Millətlər Təşkilatına təqdim olunan hesabatların əsaslandığı informasiyanı və Komitənin ölkə hesabatlarını nəzərdən keçirmə tarixini təmin etmə imkanı var.

Bundan sonra Komitə qeyri-hökumət və hökumətlərarası təşkilatlar kimi digər mənbələrdən yazılı məlumat axtarır. Sessiyadan əvvəl işsi qrupu, Komitə üzvlərindən ibarət özəl sessiya, məruzələri nəzərdən keçirir və bütün məlumat yoxlanılır. Sonra qrup hökumətə təqdim ediləcək problemlərin siyahısını tərtib edir. Hökumətlərdən bu suallara plenar iclasdan əvvəl yazılı cavab vermələri tələb olunur.

Sonra Komitə plenar sessiya zamanı hökumətin iştirakı ilə hesabatı araşdırır. Komitə tövsiyyə edir ki, milli səviyyədə Konvensiyanın icrası ilə birbaşa məşğul olan nümayəndələr bu cür müzakirələrdə iştirak etməlidirlər. Hökumət nümayəndələri ölkədəki əsl vəziyyəti öyrənmək məqsədilə Komitənin üzvlərinin suallarına və icmalına cavab vermək üçün dəvət olunur. Dialoqun sonunda Komitə müzakirənin əsas müddəalarını özündə əks etdirən və milli səviyyədə diqqət tələb edən işlər haqda nəticələr çıxarır.

## QHT və Komitə

Konvensiyanın 45-ci (a) maddəsinə görə, Uşaq hüquqları üzrə Komitə Konvensiyanın icrasına dair ekspert məsləhətlərini təmin etmək üçün ixtisaslı agentliklər, YUNİSEF və «digər səriştəli orqanları» dəvət edə bilərlər. «Digər səriştəli orqanlar» anlayışı qeyri-hökumət təşkilatlarını (QHT) əhatə edir. Bu Konvensiya onun icrasında QHT-lərin rolunu nəzərdə tutan insan hüquqları üzrə yeganə beynəlxalq müqavilədir. Komitə Konvensiyanın necə həyata keçirildiyini öyrənmək üçün hər bir ölkədə QHT-ləri mütəmadi olaraq hesabatlar, məlumatlar və sənədlər verməyə ruhlandırır. Komitə beynəlxalq, regional, milli və yerli təşkilatlardan gələn məlumatları alqışlayır. Məlumatlar həmçinin bir QHT və QHT-lərin milli koalisiyaları və komitələrindən qəbul oluna bilər.

QHT qrupu uşaqlar üçün işləyən QHT-lərin milli koalisiyalarının yaradılması və inkişafına təkan verir. Milli koalisiya əksər hallarda koalisiya üzvlərinin ixtisaslı biliyi və fikirlərinin müxtəlifliyinə görə Konvensiyanın icrasının daha səmərəli monitorinqini mümkün edir. Bazasının genişliyi və nümayəndələrinin çoxluğu milli koalisiyaya uşaqlarla işləyən QHT-lərlə əməkdaşlıq etməyə və onu müəyyən sahələrdə işlərini idarə etməyə imkan verir. Milli koalisiyalar Konvensiyanın qaldırdığı məsələlərlə, insan hüquqları və humanitar və inkişaf, iqtisadi, mədəni, sosial, mülki və siyasi hüquqlar daxil olmaqla, məşğul olan təşkilatlardan ibarət olmalıdır. Bundan əlavə, üzvlər etnik, mədəni ayrı-seçkiliklərin mövcud ola biləcəyi ölkələrdə hüquqi və coğrafi fərqləri təmsil edəcəklər. Uşaqların fikirlərinin nəzərə alınması da eyni dərəcədə vacibdir.

# II. QHT YAZILI TƏQDİMATLARI

## Hesabat prosesinə QHT yardımları

Uşaq Hüquqları üzrə Komitə bildirir ki, Tərəfdaş dövlətin hesabatı geniş və xüsusən vahid olmalıdır ki, milli qanunvericiliyin, inzibati qaydaların, prosedur və təcrübələrin hazırlanma prosesinin müfəssəl təhlilini aparmağa imkan versin. Hesabata görə məsuliyyəti dövlətin daşımasına baxmayaraq, QHT-lər də bu işə öz yardımlarını edə bilərlər. Komitə tövsiyyə edir ki, hesabatın hazırlanması qanun və siyasətin Konvensiya ilə uyğunlaşdırılması üçün həyata keçirillən tədbirlərin müfəssəl olması baxımından imkanlar açmalı və bu proses «hökumətin siyasətinə ictimai nəzarətə və kütləvi işətiraka» şərait yaratmalıdır. Hesabatların hazırlanması üçün təlimatlar Konvensiyanın icra olunmasında və hazırlanmasında QHT-lərin hazırladıqları hesabatlar əsasında ortaya çıxan məsələlərə istinad edlirir. Bu düşüncə tərzi Komitənin plenar sessiya ərzində Tərəfdaş dövlətin QHT ilə əməkdaşlığı barədə mütəmadi suallarının nəticəsi olaraq meydana gəlib.

Bəzi ölkələrdə Tərəfdaş dövlətin hesabatı hazırlanarkən QHT-lərin məsləhətləri və yardımlarından da istifadə olunur. Bu əməkdaşlıq özünü müxtəlif formalarda büruzə verə bilər: Konvensiyanın icrasına dair informasiya üçün QHT-lərə məktubların göndərilməsi, QHT-lərlə görüşlərin keçirilməsi, yaxud onların fikirlərini öyrənmək üçün görüşlər və ya hesabatn ilkin variantının müzakirəsi, yaxud ilkin hesabatın hazırlanması üçün birgə hökumət-QHT komitəsinin yaradılması. Əksər ölkələrdə QHT-lərin fikirləri nəzərə alınmadığından onlar hesabatların hazırlanmasına öz yardımlarını edə bilmirlər. Bundan əlavə, QHT-lərin öz müstəqilliklərini qorumaları üçün ehtiyatlı olmaları lazım gəlir. Komitəyə hesabat hazırlamaq Tərəfdaş dövlətin öhdəliyidir və QHT-lər onlar üçün hesabat yazmağa borclu deyillər.

## QHT hesabatının hazırlanması

Uşaq hüquqları üzrə Komitə Konvensiyanın həyata keçirilməsi zamanı inkişaf və ortaya çıxan çətinliklər barədə müstəqil və ciddi qiymətləndirmə üçün QHT-lərdən spesifik, etibarlı və obyektiv məlumatlar əldə etməyə çalışır. Tərəfdaş dövlətlərin təqdim etdikləri hesabatlar faktiki qanunvericiliyin incələnməsindən ibarət olur və icra proseslərini əsasən nəzərə almır. Ona görə də, Komitə nəzərdə tutulan ölkədə uşaqların vəziyyəti barədə tam mənzərəni əldə etməkdə çətinlik çəkir. Bu baxımdan mlnitorinq prosesində QHT-lərin müşahidə məlumatları zəruridir. Komitə Konvensiyanın əhatə etdiyi sahələrdə baş verənləri müşahidə etmək üçün məlumatlar axtarır. Komitə həmçinin, hökumət hesabatının zəruri məlumatlarla təmin etmədiyi sahələrdən, və ya QHT-lərin düşüncəsinə görə, əhatə olunmayan sahələrdən məlumat əldə etməkdə maraqlıdır.

Bir QHT-dən daha çox QHT koalisiyaları tərəfindən hazırlanan hesabatlara məhəl qoymamaq və hörmətsizlik etmək çətindir və o, qanun pozuntusu haqda olan məlumatı daha inandırıcı edir. Buna görə də, hökumət bir QHT tərəfindən təqdim olunan məlumatı qeyri-ciddi adlandıra, həmin QHT-nin siyasi mülahizələrə əsaslandığını, müxalifətə bağlı olduğunu, əks olunmuş fikirlərin faktlardan daha çox fantaziyaya əsaslandığını iddia edə bilər. QHT koalisiyası tərəfindən təqdim olunmuş hesabata isə hökumətin məhəl qoymaması çox çətindir. Bundan əlavə, hərtərəfli məruzə müfəssəl məruzə zaman məhdudiyyəti çərçivəsində olan Komitə üzvlərinə özlərini müvafiq məsələlərə uyğunlaşdırmağı, 20 təşkilatın təqdim etdiyi ayrı-ayrı məruzədən daha çox, 20 birgə təşkilatın sənədini tədqiq etməyə iman verir.

## Məruzələrin birləşdirilməsi

Tərəfdaş dövlətlər konvensiyanın 44-cü (6) maddəsində olduğu kimi, «öz ölkələrində cəmiyyətə geniş məruzələr çatdırmağı öz üzərlərinə götürürlər». Komitə üçün yazılı hesabatlar hazırlamaqda maraqlı olan QHT-lər (QHT və ya QHT koalisiyaları) öz ölkələrində Tərəfdaş dövlətin Hesabatının surətini tələb edəcəklər. Əgər hər hansı səbəbdən hökumət onları hesabatın surəti ilə təmin etmirsə, bu sənədlər Cenevrədəki QHT qrupundan istənilə bilər. QHT-lər Konvensiyanın həyata keçirilməsini müşahidə edən qurum yaratmamışdan öncə Tərəfdaş dövlətin Komitəyə hesabatlarını təqdim eiməsini gözləməli deyillər. Monitorinq və təhlil erkən başlanılması tələb edilən bir prosesdir. Komitə üçün hesabat Tərəfdaş dövlət qənaətlərini şərh etmək üçün təqdim etdikdən sonra başa çatdırılmalıdır.

Hesabatda Tərəfdaş dövlətin məruzələrinin hər bölmədə təhlili verilməli və Komitənin «İlkin məruzələrin forma və məzmunu barədə əsas təlimatlar»a uyğun olmalıdır. Maddə maddə yanaşmadan daha çox, təlimatlar hesabatların 8 dəst maddəyə əsaslanan spesifik tematik quruluşa istinad etməsini tələb edirlər. Bunlar aşağıdakılardır: ümumi həyata keçirilməli tədbirlər (4, 42, 44.6); uşaq anlayışı (1); ümumi prinsiplər (2, 3, 6, 12); vətəndaş hüquq və azadlıqları (7, 8, 13, 14, 15, 16, 17, 19, 37(a)); ailə münasibətləri və alternativ qayğı (5, 9, 10, 11, 18, 20, 21, 25, 27.4); əsas səhiyyə və rifah (18, 23, 24, 26, 27); təhsil, əyləncə və mədəni fəaliyyətlər (28, 29, 31); xüsusi müdafiə tədbirləri (22, 30, 32, 33, 34, 35, 37, 38, 39, 40). Bu yolla Komitə hökumət hesabatı və QHT məlumatını müqayisə edə bilir. «Dövri məruzələrin forma və məzmunu ilə bağlı əsas təlimatlar» Konvensiya daxilində razılıq əldə etmək üçün tələb edən göstəricicilləri təmin edən məsələləri özündə əks etdirir. Bu təlimatlar hər bir maddəyə sistematik nəzər yetirilməsinə yardım edir.

QHT hesabatının məqsədi Tərəfdaş dövlətin hansı qanun, siyasət və təcrübəsinin Konvensiyanın standartlarına və prinsiplərinə uyğun gəlib-gəlməməsinin sistematik təhlil edilməsindən ibaətdir. Tərəfdaş dövlət uşaqların təcrübəsinin xidmətlərin idarə

olunmasında, mədəniyyət və müxtəlif yurisdiksiyalar sahəsində fərqlərin hesabatda birləşdirilməsini əks etdirməlidir. Hesabat həmçinin uşaqların bilik, müşahidə, təcrübə ilə əlaqədar fikirlərinin mənbələrini göstərməlidir.

Hesabat cari qanunvericilik, onun həyata keçirilməsi üzrə hökumət hesabatları, hökumət statistikaları, dəqiq qeydlər, parlament/qanunvericilik fəaliyyətləri, təşkilatlar və uşaqlarla işləyən ixtisaslı orqanlar tərəfindən hazırlanan hesabatlar, dərc edilmiş tədqiqatlar (hökumət, akademik, QHT), kitablar və jurnallar da daxil olmaqla geniş informasiya vasitələrinə əsaslanmalıdır. Əsas məsələlər vacib təşkilatlar və şəxslərlə məsləhətləşmələr əsasında təsdiqlənməlidir. Hesabat ölkədəki təcrübənin dəqiq mənzərəsini təmin etmək üçün qanunvericiliyin həyata keçməsini təhlil etmək yollarını axtarmalıdır. Hökumətlər qanunvericilik hesabatları hazırlamağa meyllidirlər. QHT-lər isə Konvensiyanın həyata keçirilməsi və bu yöndəki qüsurlar barədə məlumatların çatdırılmasında əsas rol oynayırlar. Hesabat hökumət tərəfindən verilən məlumatları təsdiq və ya inkar etmək üçün müvafiq qanunvericilik və statistikaları göstərməlidir. Hesabatda göstərilən məlumatlar Konvensiyanın həyata keçirilməsində təhlillərlə birbaşa əlaqəli olmalıdır ki, hansı maddələrin həyata keçib keçmədiyini, hansı yollarla təmin olunduğunu və gözlənilən nəticə və göstəriciləri izah edə bilsin. Bu, həmçinin Konvensiyanın pozulmasına şərait yaradan hallara istinad edərkən də səmərəli ola bilər.

QHT-lər həmçinin hökumət hesabatında məlumatın verilmədiyi sahələrdə Tərəfdaş dövlətin hesabatını tamamlayan məlumatlar təqdim edə bilərlər. Bu məlumat QHT-lərin tematik məsələlərdə hazırladıtğı məruzə formalarını özündə birləşdirə bilər (küçə uşaqları, işləyən uşaqlar, silahlı münaqişə şəraitində olan uşaqlar, qaçqın uşaqlar, qız uşaqları, cinsi istismar olunan uşaqlar). Bir məsələ, yaxud bir zəif qrup üzərində cəmləşmiş hesabatlar da faydalı ola bilər. Tematik hesabatlar Dünya Uşaq Sammiti (Nyu York) İnsan Haqları üzrə Dünya Konfransı (Vyana), Qadın Məsələləri üzrə Dünya

Konfransı (Pekin), Yer Sammiti (Rio), Dünya Sosial İnkişaf Sammiti (Kopenhagen) və Ticari Məqsədlə Cinsi İstismar üzrə Dünya Konqresi (Stokholm) kimi İnsan Hüquqları və İctimai İnkişaf barədə konfransların fəaliyyətləri ilə əlaqəli ola bilər.

## Tövsiyyələr

QHT-lər öz ölkələrində uşaqların vəziyyətini yaxşıladırmağa kömək edəcək konkret tövsiyyələr hazırlamalıdırlar. Bu, cari qanunvericiliyin dəyişdirilib Konvensiyaya uyğunlaşmasına ehtiyac olub olmadığını göstərmək üçün kömək ola bilər. Onlar əsas vacib hesab etdikləri bir sıra məhdud saylı məsələlər üzərində fikirlərini cəmləməyə salışmalıdırlar. QHT-lər həmçinin istədikləri sual və məsələləri Komitənin hökumət qarşısında qaldırmasını da göstərə bilərlər. Onlar eləcə də, Konvensiyanın həyata keçirilməsində oynayacaqları rollar barədə konkret tövsiyyələr hazırlamalıdırlar. Komitə xüsusi olaraq, QHT-lərin dəyişikliyi müdafiə etmə imkanları ilə maraqlanır. O, hökumət və yerli QHT-lər arasınla əməkdaşlıq barədə də tövsiyyələr verir.

## İşgüzar məlumatlar

QHT hesabatları 30 səhifədən artıq olmamalıdır. Hesabatın xülasəsi və nəticəsi əsas məsələləri işıqlandırmalı və Konvensiyanın həyata keçirilməsində əsas məqamları göstərməlidir. Yazılı məlumatlar faktlarla təsdiqlənməli və siyasi hesab olunacaq tonda ifadə olunmamalıdır. Subyektiv baxışlar hesabatda əks olunmamalıdır. Məqsəd münaqişədən daha çox yaradıcı dialoq və problemləri və həyata keçiriləcək konkret tədbirləri aşkarlamaqdır. Hesabatlar Komitənin üç rəsmi dilindən (İngilis, Fransız, İspan) birində təqdim olunmalıdır. Hazırda Komitənin on mütəxəssisindən doqquzunun rəsmi iş dili ingilis dili olduğundan, fransız və ispan dillərində təqdim olunan sənədlər imkan dairəsində ingilis dilin tərcümə olunmalıdır. BMT QHT-lər tərəfindən təqdim edilmiş sənədləri tərcümə etmir.

Yaxşı olardı ki, yazılı hesabat sessiya qabağı işçi qrupların görüşlərində baxılması üçün hökumət hesabatının Cenevrədə İnsan Hüquqları Baş Komissiyasının Ofisi tərəfindən qəbul edilməsindən sonrakı 1 ilə müddətində təqdim olunsun.

QHT hesabatları məlumatları Komitəyə və ya birbaşa İnsan Hüquqları Baş Komissiyasının Ofisinə çatdıracaq QHT qrupuna təqdim oluna bilər. QHT hesabatlarının Komitə üzvləri, Komitə Katibliyi və QHT qrupu arasında yayılması məqsədilə 15 nüsxədən ibarət surətinin təqdim edilməsi məsləhətdir. Əgər belə olmazsa, QHT qrupu özü hesabatın surətini çıxarmalı olacaq.

Hesabat Uşaq Hüquqları Komitəsinə təqdim olunan QHT hesabatlarından ibarət elektron məlumat bazasına daxil edilməsi məqsədilə disketdə də təqdim olunmalıdır. O, məlumat bazasının bir hissəsi olaraq internetdə yerləşdiriləcək ki, maraqlananlar onunla tanış ola bilsinlər. Lütfən, QHT qrupunun bu mənbələrə məlumat daxil etməsi üçün icazənin olduğunu da göstərin. Bu xidmət pulsuzdur və QHT qrupu tərəfindən heç bir ödəniş nəzərdə tutulmur. Tərəfdaş dövlətin hesabatı tamamlanmayınca, bu hesabat ictimaiyyət üçün açıqlanmayacaq. QHT-lər həmçinin Komitə üzvlərinin hökumətlə müzakirələr zamanı istinad etmələri üçün məlumatların mənbələrini göstərməlidirlər.

Hesabatı hazırlayarkən nəzərə alınmalı olan əsas məqamlar

- Hesabatlar Komitə təlimatlarına riayət edilməklə hazırlanmalıdır
- Konkret tövsiyyələr hazırlanmalıdır
- Hesabatlar 30 səhifədən artıq olmamalıdır
- Hesabatlar ingilis, fransız, yaxud ispan dillərindən birində olmalıdır
- Hesabatın xülasə və nəticə hissəsinin ingilis dilində olması vacibdir
- Hökumət hesabatları təqdim edildikdən sonrakı bir il müddətində hesabatlar Komitəyə göndərilməlidir.

# III. KOMİTƏNİN SESSİYA QABAĞI İŞÇİ QRUPU

## TƏRKİBİ

Komitənin sessiya qabağı işçi qrupu Tərəfdaş dövlətin hesabatının təhlilinin aparılması və əlavə və alternativ məlumatların yoxlanılması üçün bir vasitədir. İşçi qrup növbəti sessiyada Komitə qarşısında duracaq Tərəfdaş dövlətlə müzakirə olunacaq məsələləri qabaqcadan təsdiqləmək üçün ildə üç dəfə görüşür. İşçi qrup Komitənin müntəzəm sessiyalarına uyğun olaraq, beş gün müddətinə Cenevrədə görüşür. İşçi qrup olduğuna görə, Komitənin bütün üzvləri iştirak etməyə bilər.

Sessiya qabağı işçi qrup xüsusi olaraq görüşür. Bu, o deməkdir ki, heç bir mətbuat, hökumət nümayəndələri və ya xarici müşahidəçilər bu görüşlərdə iştirak eləyə bilməz. Qeyd olunmalıdır ki, müvafiq hökumətlərarası təşkilatların (UNİCEF, BƏT və s.) nümayəndələri iştirak üçün dəvət olunurlar. Qabaqcadan yazılı məlumat təqdim edən, Komitə tərəfindən müvafiq hesab olunan QHT-lər də işçi qruplarda iştirak üçün dəvət oluna bilərlər. QHT-lər əsasən, ölkələri ilə əlaqədar görüşlərdə iştirak üçün dəvət olunurlar. Bu görüşlər hər ölkə üçün təqribən 3 saat çəkir: saat 10.00-13.00 və ya 15.00-18.00.

## QHT-lərin iştirakı

Maraqlanan QHT-lər işçi qrupun işində iştirak etmək istədikləri haqqında ətraflı məlumatı məktubla bildirməlidirlər. Hər ölkədən məhdud sayda QHT dəvət olunur. Komitə ölkələr üzrə QHT-lər və ya koalisiyalar tərəfindən qabaqcadan təmin edilmiş yazılı məlumatları qiymətləndirərək bu qərarı çıxarır. Bu, hansı məlumatların Tərəfdaş dövlətin məlumatlarını

nəzərdən keçirmək üçün uyğun olduğunu yoxlamaq və və hansı QHT yaxud koalisıiyaların ölkədə Konvensiyanın spesifik aspektlər üzrə həyata keçirilməsində düzgün mövqedə olduğunu yoxlamaqla müəyyənləşdirilir. Daha sonra Komitə yazılı məlumatların qəbul olunduğunu bildirir və həmin QHT, yaxud koalisiyanı işçi qrupun müəyyən tarix və zamanda keçiriləcək iclasında iştirak üçün dəvət edir.

QHT və koalisiyaların işçi qrupda iştirakı Komitə üzvlərinin onlara sual verməlırinə və alternativ mövqeni öyrənmələrinə imkan verir. QHT-lər Komitəyə həm hökumət hesabatı, həm də ölkədəki real vəziyyət barədə konstruktiv və tənqidi təhlillər verməyə ruhlandırılır. QHT-lər həmçinin hökumətlə prioritetlərin qoyulması və əsas məsələlərin müəyyən edilməsinə kömək edə bilərlər. QHT-lərin verdikləri məlumatlar əsasında hökumətə göndəriləcək məsələlər siyahısının hazırlanmasında da istifadə edilə bilər. Siyahı əlavə məsələləri də əhatə edir ki, bunlara da plenar sessiyadan əvvəl hökumətin yazılı cavab verməsi tələb olunur.

Təəssüf ki, Komitə səfər xərcləri üçün maliyyə vəsaiti ilə tam təmin edə və səfərin təşkilinə yardım göstərə bilmir. Bununla belə, QHT qrupu sessiya qabağı işlərdə iştirak etmək üçün Komitə tərəfindən dəvət olunan milli QHT və ya QHT koalisiyasının bir nümayəndəsinin səfərini maliyyələşdirə bilər. QHT-lər Komitənin işində iştirak etmək üçün bir və ya iki nümayəndə göndərməlidir. Hesabatın hazırlanmasında iştirak etmiş və ya ölkədə uşaq hüquqlarının vəziyyəti barədə kifayət qədər məlumatı olan şəxsin iştirakı daha məqsədə uyğundur. Komitə üzvləri adətən silsilə suallar verirlər ki, onlara da yalnız mütəxəssis cavab verə bilər. Şifahi təqdimat zamanı istinad edilən və ya Komitə üzvlərini maraqlandıra bilən statistik rəqəmlərin və tədqiqatların surətlərinin verilməsi də vacibdir.

## İşçi qrupun prosedurları

İşçi qrupun iclası zamanı Tərəfdaş dövlətin hesabatının Komitə tərəfindən hesaba alınması üçün heç bir sabit üsul və yanaşma yoxdur. Bu, əsasən hər bir məlumatın müvafiqliyi və ya qeyri-qənaətbəxş olması və məlumatın nə dərəcədə qorunmasından (təhlükəsizliyindən) asılıdır. Sədr adətən iclasa Komitə üzvlərinin özlərini təqdim etmələri üçün müraciətlə başlayır. Daha sonra o, ilkin bəyanatın verilməsi üçün QHT-lərə müraciət edir. Şərhlər ingilis və fransız dillərində olmalıdır, əgər lazım gələrsə, ispan, ərəb, rus və çin dillərində də ola bilər. Çıxış üçün söz veriləndə mikrafonun qarşısındakı düyməni sıxın. Danışmazdan öncə işığın yanmasını gözləyin. Yadda saxlayın, elə yavaş və aydın danışmaq lazımdır ki, tərcüməçilər başa düşsünlər.

İlkin çıxışda QHT-lər 15 dəqiqədən çox danışmamalıdırlar. QHT-lər Tərəfdaş dövlətin məlumatlarına öz münasibətlərini bildirməli, öz ölkələrində uşaqların qarşılaşdıqları əsas problemləri açıb göstərməli və yazılı sənədlərin qəbulundan sonra yaranan hər hansı yeni məlumatları bildirməlidirlər. Əgər bu məlumat QHT-nin narahatlığını əks etdirirsə və hal hazırda ölkədə mövcuddursa, Komitə hesabatın hazırlanmasında hökumətin QHT-lərlə məsləhətləşib-məsləhətləşməməsi ilə maraqlanır. Yuxarıda göstərildiyi kimi, pres-relizlərsiz və ya heç bir xülasə qeydləri olmadan aparılır. Bu, müəyyən səviyyədə məxfiliyə və QHT-lərin sərbəst danışmalarına imkan yaradır. Təqdimatın yazılı formada hazırlanması tələb olunmasa da, surəti sonrakı arayışlar üçün Komitəyə təqdim oluna bilər.

Sonra sədr oxşar təqdimatlar üçün hökumətlər arası təşkilatlara (HAT) müraciət edir. Bundan sonra Komitə üzvləri məlumatlar və təqdimatlar haqqında suallar verə və öz iradlarını bildirə bilərlər. Bəzi iradlar ümumi olsa da, digərləri QHT və HAT-a ünvanlanmış suallar ola bilər. Ekspertlərin suallarına cavab vermək və ya onların iradlarına şərhlərini

vermək istəyən QHT-lər sədrə işarə etməlidirlər ki, onlar çıxış etmək istəyirlər. Sual və iradlara cavab verərkən, QHT-lər imkan daxilində qısa cavab və şərhlər verməyə çalışmalıdırlar. Əgər daha çox məlumata ehtiyac olarsa, əlavə suallar verilə bilər. İclasın sonunda QHT-lər iclasda iştirak etmək üçün dəvət olunduqlarına görə Komitəyə təşəkkür etməlidirlər.

Şifahi təqdimatın hazırlanmasında xatırlanan əsas məqamlar

- Yazılı məlumatlar əks olunan məktub işçi qrupunda işləmək istəyini ehtiva edir
- Yalnız yazılı məlumat təqdim edən QHT-lər dəvət oluna bilər
- Çıxışlar on beş dəqiqədən artıq olmamalıdır
- Məlumatlar haqqında münasibət bildirilməli, əsas problemlər işıqlandırılmalı və son məlumatlar təmin edilməlidir
- Hökumətin hesabatında hökumət və QHT məsləhətləşmələri haqqında məlumatlar verilməlidir.

# IV. FƏALİYYƏTİ DAVAM ETDİRMƏK ÜÇÜN QAYDALAR

## Sessiya qabağı işçi qrup və plenar iclas arasında

Sessiya qabağı işçi qrupun ardınca, Komitə rəsmi olaraq, qaydaya görə 4-8 ay sonra açılan plenar sessiyada iştirak etmək üçün hökuməti dəvət edir. Komitə hökumətə məsələlərin siyahısını göndərir və plenar sessiyadan təqribən bir ay əvvəl yazılı cavab verilməsini xahiş edir. Siyahının surəti plenar sessiyadan bir ay əvvəl QHT-lərə də təqdim edilir. QHT-lər birbaşa hökumətə müraciət etməklə bu siyahının surətini daha tez əldə edə bilərlər. Hökumət müraciət edərsə, yaxud QHT-lər özləri istəsələr, yazılı cavabların hazırlanmasına kömək edə bilərlər. Onlar bu məsələlərlə bağlı öz qısa yazılı cavablarını hazırlayıb, məlumatların yoxlanılmasına qədər Komitəyə təqdim edə bilərlər. Məsələlər siyahısına cavablar plenar sessiyaya qədər QHT-lərə verilmir.

Bu müddət ərzində hökumət rəsmi nümayəndə heyətinin üzvlərini seçir. Nümayəndə heyətinin tərkibi müxtəlif ola bilər və həm hökumət adından danışmaq hüququ olan yüksək səviyyəli məmurlardan, həm də bu Konvensiyanın həyata keçirilməsində daha çox birbaşa əlaqəsi olan şəxslərdən ibarət olmalıdır. Ümumi qaydalara görə, Komitə təklif edir ki, hökumət müvafiq nümayəndə heyəti göndərsin və bu yalnız Cenevrədə yerləşən diplomatik korpusun üzvlərindən ibarət olmasın. QHT-lər müvafiq nazirliklərlə iclas tarixini müəyyən etməli və yüksək bilik səviyyəsinə malik nümayəndə heyətinin göndərilməsinə xüsusi diqqət yetirməlidirlər.

QHT-lər uşaq problemləri ilə bağlı və hökumətlə bu yöndə əməkdaşlığın edilməsi istiqamətində müzakirələrin aparılması məqsədilə nümayəndə heyətinin üzvləri və başqa mühüm şəxslərlə görüşə bilərlər. Bu tipli müzakirələr imkan daxilində QHT-lərin uşaqların rifahı və hüquqları ilə əlaqədar rolunu

açıqlamağa kömək edir, eləcə də, hökumət hesabatında nəzərə alınmamış mühüm məsələlərə diqqət yönəldir.

QHT-lər qarşıdan gələn iclasa daha çox ictimai diqqətin yönəldilməsi məqsədilə mətbuat konfransları və bu kimi tədbirlər keçirə bilərlər. Mətbuatın Tərəfdaş dövlətin hesabatını əldə etməsi mümkün olarsa, QHT-lər də öz hesabatlarını Komitədəki görüşlərdən əvvəl açıqlaya bilərlər ki, bu da ictimaiyyətin uşaq məsələləri ilə əlaqədar maariflənməsinə və ictimai müzakirələrə əla imkan yaradar.

# Plenar sessiya

Komitə ildə üç dəfə - yanvar, may-iyun və sentyabr-oktyabr aylarında üç həftə ərzində öz rəsmi (plenar) sessiyalarını keçirir. İlkin dövlət hesabatına baxış adətən bir gün yarım (hər biri üç saat davam edən üç iclas), dövri dövlət hesabatı isə bir gün (hər biri üç saat davam eləyən iki iclas) vaxt aparır. Hökumət Komitədən əvvəl gələrsə, ekspertlər əlavə suallar verə və QHT-lərdən alınmış məlumatlar əsasında iradlarını bildirə bilərlər.

QHT-lərin plenar iclasda müdaxilə etmələri qəbuledilməzdir. Sessiya ümumi xarakter daşıyır və iclasda danışmaq hüquqları olmasa da onlar müşahidəçi qismində iştirak edə bilərlər. Plenar sessiyada iştirak QHT-lərin hökumətlə dialoqun hərtərəfli mənzərəsini əldə etmələrinə imkan verir. Müzakirələrin xülasələrinin dərc olunmasına baxmayaraq, bunlar müzakirələrin qeydlərindən daha çox fəaliyyət haqqında xülasəni əks etdirir. Bundan əlavə, ümumi qeydləri müzakirələrdən hətta bir neçə ay sonraya qədər də bütün dillərdə əldə etmək mümkün olmur. Burada həmçinin hökumətlə iclasdan qabaq və iclas zamanı əlavə məlumat təqdim etmək, dəyişiklikləri təmin etmək və ya mümkün təkliflər vermək üçün Komitə üzvləri ilə qeyri-rəsmi görüş mümkündür.

## Yekun nəticələr

Tərəfdaş dövlət ilə müzakirələrdən sonra Komitə Konvensiyanın yerinə yetirilməsində müsbət cəhətləri və çətinlikləri əks etdirən, gələcək fəaliyyət üçün təklif və tövsiyyələr verən yekun nəticələri qəbul edir. Bu nəticələr Komitə sessiyasının sonuncu günü dərc edilir və həm hökumətə, həm də BMT-nin Baş Məclisinə göndərilir. Komitənin yekun nəticələri QHT-lərə milli səviyyədə müzakirələrə təkan vermək, Komitənin tövsiyyələrinin həyata keçirilməsi yönündə hökumətə təzyiq göstərmək və qanunvericililiyin və təcrübənin dəyişdirilməsi üçün lobbiçilik fəaliyyətini həyata keçirmək yolunda alətdir.

QHT-lər Komitə üzvlərinin iradları və müşahidələri haqqında məlumatları kütləvi informasiya vasitələrinə ötürməyə çalışmalıdırlar. Proseslərin səmərəliliyi onların ictimaiyyəti nə dərəcədə geniş cəlb etməsindən asılıdır. Media və ictimai daxış Komitə tərəfindən qaldırılan məsələləri gündəlikdə duran milli məsələlər kimi həll etməyə kömək edir.

### Dövri hesabatlar

Hər beş ildən bir Tərəfdaş dövlət dövri hesabatlar təqdim etməlidir. Bu hesabatlar ilkin hesabat təqdim edildikdən sonra yaranmış inkişaf haqqında məlumatları əks etdirir. Dövri hesabatların hazırlanması Konvensiyaya uyğun olaraq, qanunların və siyasətin tənzimlənməsi üçün həyata keçirilmiş tədbirlərin geniş mənzərəsini vermək və uşaq huquqlarının həyata keçirilməsi ilə bağlı inkişafı müşahidə etmək imkanı olmalıdır. Hesabatın hazırlanması ictimaiyyətin geniş iştirakının cəlb olunması ilə müşayiət edilməlidir.

Dövri hesabat Konvensiyanın həyata keçirilməsində dərin və ətraflı anlaşmanı təmin etməli və bütün inkişafı və qarşıya çıxan çətinlikləri aydın göstərməlidir. Hesabat ilkin hesabatda təqdim olunmuşları deyil, daha ətraflı, etibarlı və statistik məlumatları təmin etməlidir. Dövri hesabatların hazırlanma-

sı, təqdim olunması və qəbul edilməsinin əsas məqsədləri aşağıdakılardır: uşaqların statusu ilə əlaqədar müsbət və mənfi fikir və dəyişiklikləri müəyyən etmək; Komitə tərəfindən qəbul edilmiş yekun nəticələri Tərəfdaş dövlətin nəzərə alması və Tərəfdaş dövlətin Komitənin verdiyi təklif və tövsiyyələrin yerinə yetirilməsinin qiymətləndirəlməsi və uşaqların vəziyyətini yaxşılaşdırmaq üçün nəzərdə tutulan fəaliyyət və tədbirlərin müəyyən edilməsi.

Dövri hesabata alternativ yazılı məlumat hazırlamaq istəyən QHT-lər yekun nəticələrdən əsas kimi istifadə etməlidirlər ki, Komitə tərəfindən göstərilmiş məsələlərlə bağlı nə edilib-edilmədiyi haqqında məlumatları Komitəyə çatdırsınlar. Bundan əlavə, hesabat yekun nəticələrdə göstərilmiş sahələrdə inkişafın əldə olunub-olunmaması haqqında məlumatlarla da Komitəni təmin etməlidir. QHT dövri hesabatı ilkin hesabatın qəbulundan sonra əsas sahələrdə baş vermiş müsbət və mənfi dəyişikliklər barədə məlumatlarla da təmin etməlidir.

## Yerli monitorinq

QHT-lər tərəfindən yerli monitorinqin aparılması çox vacibdir. QHT-lər Tərəfdaş dövlətin hesabatları arasındakı dövrdə məlumatları Komitəyə təqdim etməyə tərəddüd göstərməməlidirlər. Komitəni xüsusilə onun göstəriş və tövsiyyələrinin Tərəfdaş dövlətin yerinə yetirməsi maraqlandırır. Bu da onun təklif və tövsiyyələrinin həyata keçirilməsinin vaxtaşırı nəzərdən kesirilməsinin vacibliyini göstərir. Xüsusən, Komitə ilə dialoqdan sonra ölkədəki vəziyyət daha da pisləşərsə, QHT-lər Komitə ilə əlaqə saxlamalıdırlar. 44-cü maddənin 4-cü bəndinə əsasən, Komitə Tərəfdaş dövlətdən hesabatlar arası dövrdə əlavə məlumatlar almaq hüququna malikdir.

Ölkədə vəziyyətin davam etməsi və pisləşməsi halında Komitə bildirir ki, o, Konvensiyanın ciddi pozuntularını aradan qaldırmaq yönündə təxirəsalınmaz tədbirlər həyata keçirə bilər. Komitə ayrı-ayrı hallarda deyil, Tərəfdaş dövlətdə Konvensiyanın müddəalarının sistematik və ciddi pozuntusu hallarında cavab verir. Komitə Tərəfdaş dövlətdən vəziyyətlə bağlı əlavə məlumatlar istəyə, yaxud ölkəyə səfər təşkil edə bilər. O, həmçinin BMT-nin müxtəlif orqanları ilə əlaqələrdən istifadə edə bilər. Komitə fəaliyyətə başlamazdan öncə hökumətə müəyyən vaxt verə bilər. Komitə nadir hallarda bu növ işlərə uyğun olaraq, bu tip prosedurlardan və BMT sistemindən istifadə edir.

## Mövzu günü

İldə bir dəfə, adətən oktyabr ayında Komitə bir günü tematik məsələlər üzrə müzakirələr ünü kimi qeyd edir. Mövzu günlərinin keçirilməsində məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Konvensiyann spesifik aspektləri üzərində cəmləmək və vəziyyəti yaxşılaşdırmaq üçün tələb olunan proqram və siyasətlərin strategiyalarının bölüşdürülməsindən ibarətdir. Ötən mövzular aşağıdakılardan ibarət olub: «Uşaqlar silahlı münaqişələrdə», «Uşaqların iqtisadi istismarı», «Uşaq hüquqlarının inkişafında ailənin rolu», «Qız uşağı», «Yuvenal ədliyyənin idarə olunması», «Uşaq və KİV», «Xüsusi qayğıya ehtiyacı olanq uşaqların hüquqları» və «HİV/AİDS-li dünyada yaşayan uşaqlar». QHT-lər bu müzakirələrə yardım edə bilərlər. Bu barədə yazılı məlumat QHT səylərinin əlaqələndirilməsində rol oynayan QHT qruplarına təqdim edilə bilər. Müzakirələr açıq keçirilir və QHT-lərin məlumatları şifahi təqdim etmək imkanları olur.

Mövzu gününün məqsədi müzakirədə olan sahələrdə baş verən problemləri təkrar nəzərə çatdırmaq deyil. QHT-lər yaddan çıxarmamalıdırlar ki, onların auditoriyası bu sahələrdə mütəxəssis olan və bir sıra sui-istifadələrdən xəbərdar olan

Komitə üzvləridir. QHT-lər daha çox bu kimi hallar və sui-istifadə nümunələri barədə yazılarını qabaqcadan təqdim etməli və şifahi çıxışlar zamanı öz nəzər diqqətlərini vəziyyəti yaxşılaşdırma məsələləri üzərində cəmləməlidirlər. Uğurla həyata keçirilmiş yenilikçi proqramlar digər ölkələrdə də istifadə oluna bilən nümunələr kimi təqdir olunmalıdır. Komitə hökumətlərəl müzakirələrdə bu işləri təklif edə və onları tövsiyyələrə daxil ed bilər.

QHT-lər beynəlxalq ictimaiyyətin diqqətini müzakirə olunan məsələlərə yönəltmək üçün Komitənin qəbul edəcəyi bir sıra tövsiyyələri ortaya qoymalıdır. Beynəlxalq səviyyədə diqqətin müzakirə olunan məsələlərə cəmlənməsi üçün ideylarala Komitənin təmin edilməsində QHT-lər mühüm rol oynayırlar.